**İki istehsalçıya məxsus yağda uyğunsuzluqların aşkarlanmasına dair məlumat**

**(9 aprel 2025)**

Qida Təhlükəsizliyi Agentliyinin əməkdaşları tərəfindən həyata keçirilən nəzarət tədbirləri çərçivəsində yaxılabilən və qatı yağ məhsullarından götürülmüş nümunələrin laborator müayinəsi nəticəsində **2** istehsalçıya məxsus **2** məhsulda uyğunsuzluqlar aşkarlanıb. Həmçinin bitki tərkibli spred yağlarının sellofanda qablaşdırılaraq nehrə yağı təəssüratı yaratmaqla istehlakçıların aldadıldığı müəyyən edilib.

Faktla bağlı qanunvericiliyə uyğun zəruri tədbirlər görülüb, istehsalçılar inzibati məsuliyyətə cəlb olunub, uyğunsuzluq müəyyən edilmiş məhsulların satışının qadağan edilməsi və ticarət obyektlərindən geri çağırılması barədə qərar qəbul edilib.

Uyğunsuzluq aşkarlanan məhsul partiyaları aşağıdakılardır:

| № | Məhsulun adı | Məhsulun istehsalçısı | Məhsulun partiyası/istehsal və son istifadə tarixləri | Aşkar edilmiş uyğunsuzluq |
|---|---|---|---|---|
| 1 | “Krestyanskoye” əmtəə nişanlı spred yağı | Fiziki şəxs Qəniyev Fərhad Allahşükür oğlu | 04.03.2025 - 13.03.2025 | Koliform bakteriyalar, kif və maya göbələkləri |
| 2 | Bitki tərkibli spred yağı (nehrə yağı adı altında satışına cəhd olunan) | Fiziki şəxs Bağırov Rüfət Ramiz oğlu | 07.03.2025 - 21.03.2025 | Koliform bakteriyalar, kif və maya göbələkləri |